

# BAHAR Nəfəsli ŞAİR

100 il bundan əvvəl Qazax torpağında dünyaya gələn, baharla əkiz doğulan Səməd Vurğun öz fitri istedadı, coşqun ilhamı, qəlbləri oxşayan şerləri ilə xalqın qəlbinə yol tapmışdır. Kim inanardı ki, qarayanız, qıvrım saçlı bir kənd uşağı "Azərbaycan" şerini dünyaya tanıdacaq, dünya şairlərinə meydan oxuyacaqdır.

Səməd Vurğun vətənə bağlı, təbiətə, torpağa, insanlara vurğun bir sənətkar idi.

"Mən ellər oğluyam, ellər canımdır!" - deyərdi poeziyamızın ağ saçlı qartalı böyük Səməd Vurğun. Böyük ideyalar, arzular, amallar şairi Səməd Vurğun bahar şairi idi. Onun gözəl oxunaqlı şerləri, qoşmaları, poemaları, mənzum dramları xalq tərəfindən sevilə-sevilə oxunur. S. Vurğun poeziyası öz aktuallığı, məna dərinliyi və poetik kamilliyi ilə həmişə təzətərdir, müasirdir. Bahar çiçəkləri kimi ətirli və təravətlidir. Vurğun şerləri bu gün də sevilir, sabah da seviləcəkdir.

XX əsrdə sənət aləmində çox



***Azərbaycanın bir parçası olan Qazax torpağı Azərbaycan ədəbiyyatına M.V.Vidadi, M.P.Vaqif, S.Vurğun, O.Sarıvəlli, M.Hüseyn, M.Dilbazi, İ.Şıxlı kimi qüdrətli sənətkarlar bəxş etmişdir. Bu söz sərrafları poetik sözün qüdrətini qaldırmış, hər biri ustad sənətkar səviyyəsinə yüksəlmişdir.***

***Azərbaycan poeziyasının bayraqdarı, yenilməz söz bahadırı, sənət peyğəmbəri, xalq şairi Səməd Vurğunun 100 yaşı tamam oldu. Təbiətdəki qəribəliyə bax! Vurğun dünyaya Novruz bayramı günü göz açıb, martın 21-də!***

böyük qüdrətli sənətkarlar yetişib. Bu sənətkarlar içərisində sənət zirvəsini üç böyük sənətkar fəth etmişdir. Aşıq Ələsgər, Üzeyir Hacıbəyov və Səməd Vurğun! Onlar ötən əsrin sənət korifeyləri olduqları kimi XXI əsrin də tayı-bərabəri olmayan dühaları, nadir inciləridir.

*Böyük şəxsiyyətlər yetişir az-az,*
*Hər zaman, hər yerdə inci tapılmaz!..*

Səməd Vurğun öz sələfləri Nizami, Füzuli, Nəsimi, Vaqif, Sabir ilə bir cərgədə dayanan klassik şairdir. Azərbaycan poeziyasının sönməz günəşi, parlaq ulduzu, əbədi baharıdır. Səməd Vurğun 100 il bundan əvvəl dünyaya baharda gəldi. Bahar eşqi ilə yazıb yaratdı. İlhamı çaylar kimi coşdu, çeşmələr kimi çağladı.

*Bahar nə xoş gəlir, ruha dad verir,*
*Xəyala, duyğuya qol-qanad verir,*
*Var olsun, şerimiz, şairlərimiz,*
*Hər gülə, çiçəyə təzə ad verir.*
***
*Bahar, istəklimsən başdan, binadan,*
*Ən gözəl qızısan sən təbiətin.*
*Xoşbəxt yaranmısan, xoşbəxt anadan,*
*Gözünün odusan şerin, sənətin,*
*Ən gözəl qızısan sən təbiətin!*
***
*Yazın nübarısan bizim diyarda,*
*Qıvrım tellərini sana, bənövşə!*
*Mən səni sevmişəm bir ilk baharda,*
*Könlümü vermişəm sana, bənövşə!*
***
*Ölümə can verma ölsən baharda,*
*Könül müqəddəsdir, qalmasın darda.*
*Baharın eşqilə çıxır yuvadan,*
*Balası dalında qarışqalar da*

- deyən şair 50 il öncə baharda dünyadan köçüb. Səməd Vurğunun yaradıcılığı kimi, ömür yolu da zəngin və mənalı olmuşdur. Parlaq şəxsiyyəti, həssas və ilhamlı təbiəti, dərin zəkası ilə başqalarından seçilmişdir. O həddindən artıq ürəyiaçıq, olduqca səxavətli, mərd və qeyrətli bir insan olmuşdur. Müasirləri onun haqqında çox deyib, çox yazıblar. Ona ən yüksək qiyməti yaxın dostu A.Fadeyev vermişdir; "Nə yaxşı ki, dünyada Səməd Vurğun var!"

Səməd Vurğun sözün həqiqi mənasında xalq şairi, el nəğməkarı, ictimai-siyasi xadim, ədəbiyyat nəzəriyyəçisi və tənqidçisi, Azərbaycanın ilk akademiklərindən biri olmuşdur.

Səməd Vurğun xalq ruhunda yazdığından şerləri oxunaqlı və yaddaqalandır.

*El bilir ki, sən mənimsən,*
*Yurdum-yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!..*

Körpə uşaqdan tutmuş, qocaларadək hamı S. Vurğunun "Azərbaycan" şerini əzbərdən bilir.

Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmiş görkəmli şair Səməd Vurğunun 100 illik yubileyi haqqında Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev xüsusi sərəncam imzalamışdır. Həmin sərəncama əsasən böyük sənətkarın 100 illik yubileyi dövlət səviyyəsində bayram edilir. Respublikamızın hər yerində olduğu kimi Səməd Vurğunun doğulub boya-başa çatdığı Qazaxda şairin 100 illik yubileyi münasibətilə məktəblərdə, elm və təhsil ocaqlarında, mədəniyyət evlərində, klublarda, kitabxanalarda və s. yerlərdə silsilə tədbirlər keçirilir. Şairin anadan olduğu Yuxarı Salahlı kəndindəki Poeziya evi dünya standartlarına uyğun tam və əsaslı təmir edilmişdir.

Bu böyük şairə ümumxalq məhəbbətinin bariz ifadəsidir. S. Vurğun xəlqi və bəşəri şairdir, onun sənəti əbədi və ölməzdir.

Səməd Vurğun dünənin, bu günün, sabahın və gələcəyin şairidir. Necəki, şer yurdu Azərbaycan var, şer-sənət, saz-söz var, Bahar bayramı var, Səməd Vurğun yaşayacaqdır. Özünün dediyi kimi; -

*Mən söhbət açsam da yüz qərinədən,*
*Bu gündən ayrıla bilməyəcəyəm.*
*Böyük kommunizmin sabahına mən,*
*Sadə xatirə tək gəlməyəcəyəm.*

*Ellər uzadacaq şair ömrünü;*
*Görməmiş, yazmamış o böyük günü,*
*Yüz il yaşasam da, ölməyəcəyəm!*
*100 yaşın mübarək olsun, ustad!*

***Kazım KAZIMLI,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***